# GÜRCÜSTAN

SAYI 61-62 (13.431)
CÜMƏ 8 AVQUST 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივი-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## ƏLİ ƏSƏDOV İRAKLİ KOBAXİDZE İLƏ AZƏRBAYCAN-GÜRCÜSTAN STRATEJİ TƏRƏFDAŞLIĞINI MÜZAKİRƏ EDİB

***Türkmənbaşı şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov avqustun 5-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.***

Nazirlər Kabinetindən Trend-ə bildirilib ki, Ə. Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb.

İrakli Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.



Görüşdə Azərbaycan - Gürcüstan strateji tərəfdaşlığının müxtəlif sahələrdə yüksək səviyyəsindən məmnunluq ifadə olunub, qarşılıqlı faydalı əməkdaşlığın ticarət - iqtisadi, investisiya, nəqliyyat-tranzit, energetika, humanitar və digər istiqamətlərdə genişləndirilməsi ilə bağlı məsələlər nəzərdən keçirilib.

*TƏHSİL*

## AMİNƏ İBRAHİMOVA BEYNƏLXALQ MƏKTƏBİ QIZIL MEDALLA BAŞA VURUB



***Marneuli Bələdiyyəsinin II Kosalı kənd sakini Aminə İbrahimova Beynəlxalq Maarif Məktəbini qızıl medalla bitirərək əhəmiyyətli təhsil nailiyyəti əldə edib.***

Təhsil həyatına doğma kəndində başlayan Aminə İbrahimova orta məktəbin ilk 8 ilini II Kosalı kənd məktəbində alıb. Daha sonra biliyi və yüksək nəticələri sayəsində Marneulidə fəaliyyət göstərən Beynəlxalq Maarif Məktəbinə 100 faiz təqaüdlə qəbul olunub. Təhsil aldığı müddətdə fənlərə olan marağı, yüksək göstəriciləri və fəallığı ilə seçilən Aminə məktəbi qızıl medalla bitirib. Bununla yanaşı, müxtəlif istiqamətlər üzrə əlavə kurs və proqramlarda iştirak edərək bir neçə sertifikat da əldə edib.

Bu il o, Gürcüstanın ali təhsil müəssisələrinə qəbul üçün keçirilən imtahanlara qatılıb və gürcü dilində verdiyi imtahanı uğurla başa vuraraq, universitetin birinci kursuna qəbul olub. Hazırda Aminə İbrahimova ali təhsil həyatına başlamağa hazırlaşır. Onun məqsədi yalnız şəxsi uğurla kifayətlənməmək, eyni zamanda gələcəkdə cəmiyyətə töhfə verə biləcək peşəkar bir şəxs kimi formalaşmaqdır.

## DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞDİRİLƏN ALİ TƏHSİL PROQRAMLARININ SİYAHISI AÇIQLANIB

***Gürcüstanın Təhsil və Elm Nazirliyi 2025–2026-cı tədris ili üzrə dövlət hesabına maliyyələşdirilən ali təhsil proqramlarının siyahısını açıqlayıb.***

Siyahıya daxil olan ali təhsil müəssisələri aşağıdakılardır:

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti – **www. tsu. ge**

Gürcüstan Texniki Universiteti – **www. gtu. ge**

İlia Dövlət Universiteti – **www.iliauni. edu. ge**

Akaki Tsereteli Dövlət Universiteti – **www. atsu. edu. ge**

Batumi Şota Rustaveli Dövlət Universiteti – **www. bsu. edu. ge**

Soxumi Dövlət Universiteti – **www. sou.edu.ge**

Yakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti – **www. tesau. edu. ge**

Samtsxe - Cavaxeti Dövlət Universiteti – **www. sjuni. edu. ge**

Qori Dövlət Universiteti – **www. gu. edu. ge**

Şota Mesxia adına Zuqdidi Dövlət Tədris Universiteti – **www. zssu. ge**

Nazirlik qeyd edir ki, təhsil proqramlarında tam maliyyələşdirilən yerlərin sayı barədə ətraflı məlumat almaq üçün abituriyentlər birbaşa müvafiq ali təhsil müəssisələrinə müraciət etməlidirlər.

*TARİX*

## BEŞGÜNLÜK MÜHARİBƏNİN BAŞLAMASINDAN 17 İL KEÇİR

***Bu gün Rusiya və Gürcüstan arasında baş vermiş 2008-ci ilin avqust müharibəsinin başlamasından 17 il keçir.***

2008-ci ilin avqustun 7-dən 8-nə keçən gecə başlayan Rusiya - Gürcüstan müharibəsi 5 gün davam edib. Hərbi əməliyyatlar zamanı Gürücüstanın 408 vətəndaşı həlak olub. Onların 170-i hərbçi, 14-ü Daxili İşlər Nazirliyinin əməkdaşı, 224-ü dinc sakin olub, 2 232 nəfər isə yaralanıb. 26 min nəfər qaçqın vəziyyətinə düşüb.

Beşgünlük müharibə Rusiya tərəfindən Gürcüstan ərazilərinin işğalı, daha sonra isə Abxaziya və Tsxinvali bölgələrinindəki qondarma qurumların müstəqilliklərinin tanıması ilə nəticələnib. Buna cavab olaraq rəsmi Tbilisi Moskva ilə diplomatik əlaqələri dayandırıb və hər iki bölgəni işğal olunmuş ərazi olaraq elan edib.



**Foto E. Şahvələdindir.**

*SEÇKİ*

## PREZİDENT YERLİ SEÇKİLƏRLƏ BAĞLI SƏRƏNCAM İMZALAYIB

***Prezident Mixeil Kavelaşvili 2025-ci il yerli özünüidarəetmə orqanlarına seçkilərin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.***



Bu barədə dövlət başçısının mətbuat xidməti məlumat yayıb.

Sərəncama əsasən, bələdiyyə nümayəndə orqanlarına – sakrebuloya (bələdiyyə şurası) və yerli özünüidarəetməyə malik şəhər və ya icmaların merləri vəzifəsinə növbəti seçkilər 2025-ci il oktyabrın 4-nə təyin edilib.

Sərəncam Gürcüstan Konstitusiyasının 52-ci maddəsinin birinci bəndinin "g" altbəndinə, həmçinin "Gürcüstanın Seçki Məcəlləsi"nin 133-cü maddəsinin birinci və ikinci bəndlərinə əsasən verilib.

Qeyd edək ki, sənəd Baş nazir İrakli Kobaxidze tərəfindən də imzalanıb.

## "GÜRCÜ ARZUSU" RƏSMİ OLARAQ KAXA KALADZENİ TBİLİSİ MERLİYİNƏ NAMİZƏD KİMİ İRƏLİ SÜRÜB




***Hakim "Gürcü arzusu" partiyası Kaxa Kaladzeni rəsmi olaraq Tbilisi merliyinə namizəd kimi irəli sürüb.***

Kaxa Kaladzenin namizədliyi Mtatsminda Parkında Baş nazir İrakli Kobaxidze tərəfindən irəli sürülüb.

Tədbirdə "Gürcü Arzusu"nun qurucusu Bidzina İvanişvili də iştirak edib.

Məlumat üçün bildirək ki, Kaxa Kaladze üçüncü dəfə Tbilisi meri seçkilərində iştirak edir.

## MSK 4 OKTYABR SEÇKİLƏRİ İLƏ BAĞLI TƏDBİRLƏR CƏDVƏLİNİ TƏSDİQLƏYİB

***Gürcüstanın Mərkəzi Seçki Komissiyası 4 oktyabrda keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq məqsədilə seçki tədbirləri cədvəlini təsdiqləyib və seçkilərlə bağlı digər mühüm məsələləri müəyyənləşdirib.***




Bu barədə MSK-nın sözçüsü Natia İoseliani komissiyanın iclasından sonra məlumat verib.

İoselianinin sözlərinə görə, seçki administrasiyası artıq qanunvericiliklə nəzərdə tutulan prosedurların icrasına başlayıb. Bu gündən etibarən seçkilərin təyin edilməsi ilə bağlı bütün qanuni tələblər, icazə və qadağalar qüvvəyə minib.

*"2025-ci il 4 oktyabr tarixində Gürcüstanda bələdiyyə orqanlarına seçkilər keçiriləcək. Prezidentin və Baş nazirin birgə imzası ilə imzalanan sərəncam bu gündən qüvvəyə minib. Elə bu gün Mərkəzi Seçki Komissiyasının iclası keçirildi və seçki tədbirləri cədvəli təsdiqləndi, eyni zamanda seçkilərlə əlaqəli bir sıra əhəmiyyətli məsələlər müəyyən olundu"*, – deyə İoseliani bildirib.

Seçkilərdə Gürcüstan vətəndaşları 64 bələdiyyə üzrə 2 058 nümayəndəni həm proporsional, həm də majoritar sistemlə və 64 meri seçəcəklər.

Qanunla nəzərdə tutulmuş istisnalar istisna olmaqla, bələdiyyə nümayəndəliklərinə seçkilər elektron qaydada keçiriləcək. Səsvermədə iştirak edən seçicilərin təxminən 90%-i öz iradəsini identifikasiya və səs sayma cihazları vasitəsilə ifadə edəcək. Ümumilikdə ölkə üzrə 3051 seçki məntəqəsi açılacaq, bunlardan 2284-ü elektron, 767-si isə ənənəvi formada fəaliyyət göstərəcək.

Seçki administrasiyası qanunun aliliyinə, siyasi neytrallığa və peşəkarlığa əsaslanaraq fəaliyyət göstərəcək və yüksək etik davranış standartlarını rəhbər tutacaq. MSK eyni zamanda seçkilərdə iştirak edən bütün tərəfləri fəal iştirak etməyə, müşahidə aparmağa və seçki prosesini obyektiv və ədalətli şəkildə qiymətləndirməyə çağırıb.

# GÜRCÜSTAN VƏ TÜRKİYƏ ARASINDA STRATEJI TƏRƏFDAŞLIĞIN DƏRİNLƏŞDİRİLMƏSİ MÜZAKİRƏ OLUNUB



*Tbilisidə keçirilən Gürcüstan–Türkiyə Hökumətlərarası İqtisadi Komissiyasının 6-cı iclası çərçivəsində Gürcüstanın Baş naziri İrakli Kobaxidze və Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu arasında görüş keçirilib.*

Gürcüstan hökumətinin yaydığı məlumata görə, görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətləri və əməkdaşlığın dərinləşdirilməsi perspektivləri müzakirə olunub.

Qeyd edilib ki, İqtisadi Komissiyanın fəaliyyəti ikitərəfli ticarət-iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir.

Tərəflər həmçinin regional və strateji əhəmiyyətli infrastruktur layihələrini müzakirə ediblər. Bildirilib ki, bu layihələr iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edir.

Görüşdə Cənubi Qafqaz regionunda baş verən proseslər və bölgədə sülhün əhəmiyyəti də gündəmdə olub. Baş nazir İrakli Kobaxidze Gürcüstanın dialoqu təşviq etməyə və regionda uzunmüddətli sülh və sabitliyin təmin olunmasına hazır olduğunu bir daha vurğulayıb.

Görüşdə həmçinin Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili, infrastruktur naziri Revaz Soxadze və hökumət administrasiyasının rəhbəri Levan Jorjoliani iştirak ediblər.

# DAXİLİ İŞLƏR NAZİRİ SAMTSXE-CAVAXETİDƏ POLİS BÖLMƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞÜB

*Daxili İşlər Naziri Qela Qeladze Samtsxe-Cavaxeti bölgəsində polis və patrul polisinin rəhbər heyəti ilə işgüzar görüşlər keçirib.*

Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Nazirin bölgədə yerləşən nazirliyin digər struktur bölmələrini də ziyarət etdiyi, sərhəd polisinin, strateji neft-qaz boru kəmərlərinin mühafizəsi, mühafizə polisi və fövqəladə hallar idarəsinin iş şəraiti, texnika və avadanlıqları ilə tanış olduğu bildirilib.

Qela Qeladze bölgə polis idarəsinin rəhbər şəxslərindən onların fəaliyyət ərazilərində cinayətkarlıqla mübarizə, cinayət statistikası və açılma göstəriciləri, eləcə də polis-preventiv tədbirlər barədə geniş məlumat alıb.

Nazir görüş zamanı nazirliyin prioritet sahələrinə diqqət çəkərək, əməkdaşlara səmərəli fəaliyyətlərinə görə təşəkkür edib.



# GƏLİRLƏR XİDMƏTİ: ALMANİYA SƏFİRİNİN MÜXALİF LİDERİN AİLƏ MƏNZİLİNDƏ QALMASI İLƏ BAĞLI VERGİ POZUNTUSU EHTİMALI ARAŞDIRILIR



*Gəlirlər Xidməti Almaniyanın səfiri Peter Fişerin Tbilisidə "Lelo – Güclü Gürcüstan" partiyasının lideri*

***Mamuka Xazaradzenin ailəsinə məxsus mənzildə kirayədə qalması ilə bağlı mediada yayılan məlumat əsasında araşdırmaya başlayıb.***

Bununla bağlı Gəlirlər Xidməti məlumat yayıb.

Qurumun məlumatına görə, məsələ ilə bağlı aparılan ilkin analiz nəticəsində mümkün vergi pozuntusu aşkarlanıb və bu səbəbdən Gəlirlər Xidməti faktların araşdırılmasına başlayıb.

*"Yüksək ictimai marağı nəzərə alaraq, ictimaiyyətə məlumat vermək istəyirik ki, Mamuka Xazaradzenin ailəsinə məxsus daşınmaz əmlakın Almaniya Federativ Respublikasının Gürcüstandakı səfiri Ernst Peter Fişerə ehtimal edilən icarəyə verilməsi zamanı mümkün vergi öhdəliklərindən yayınma faktı ilə bağlı məsələ araşdırılır.*

*İctimai məkanlarda yayılan məlumatlar fonunda aparılan analiz nəticəsində mümkün vergi qanun pozuntusu müəyyən olunub. Bu səbəbdən Gəlirlər Xidməti faktların araşdırılmasına başlayıb və məlumatın tam öyrənilməsi üçün qanunla müəyyən olunmuş vergi nəzarəti tədbirləri həyata keçiriləcək"*, – deyə məlumatda bildirilir.

# "KAZBEGİ" GÖMRÜK-KEÇİD MƏNTƏQƏSİ ADİ REJİMDƏ FƏALİYYƏTİNİ DAVAM ETDİRİR

***Maliyyə Nazirliyinin Gəlirlər Xidməti nəzərinizə çatdırır ki, "Kazbegi" gömrük - keçid məntəqəsi vasitəsilə beynəlxalq daşımaları həyata keçirən şirkətlər tərəfindən malların idxalı və ixracı, o cümlədən yuxarıda qeyd olunan gömrük buraxılış məntəqələrindən fiziki şəxslər tərəfindən dövlət sərhədində keçirilən gömrük nəzarəti prosedurları rahat və tam gücü ilə davam etdirilir.***

Xatırlatmaq istərdik ki, bu il iyulun 31-də Devdoraki dərəsində yerləşən siqnalizasiya sistemi işə salınıb. Təhlükəsizliyin təmin edilməsi məqsədilə aidiyyəti dövlət qurumları ilə əlaqələndirilmiş iş nəticəsində "Kazbegi" gömrük keçid məntəqəsinin əməkdaşları və sərnişinləri mühafizə olunan/təhlükəsiz əraziyə köçürülüb.




# "OPEK+" ÖLKƏLƏRİ SENTYABRDA NEFT HASİLATINI ARTIRACAQ

***"OPEK+" qrupuna daxil olan səkkiz ölkə sentyabr ayından etibarən neft hasilatının artırılması barədə razılığa gəlib.***

Qəbul edilmiş qərara əsasən, neft hasilatı sentyabrda gündəlik 548 000 barel artırılacaq.

Qeyd edək ki, OPEK+ ölkələri son illərdə "qara qızıl"ın qiymətinin sabit saxlanılması məqsədilə hasilatı azaldırdı. Lakin 2025-ci ilin əvvəlində bu siyasət dəyişdirildi. Bu dəyişikliyin ABŞ prezidenti Donald Trampın hasilatın artırılması ilə bağlı çağırışlarının fonunda baş verdiyi bildirilir.

"Euronews" yazır ki, OPEK+ ölkələrinin bu qərarı ABŞ-nin Moskva üzərində təzyiq göstərməyə çalışdığı dövrə təsadüf edir. Vaşinqton Rusiya-Ukrayna müharibəsinin dayandırılması üçün danışıqlara başlanmasını istəyir.

Xatırladaq ki, bu həftə Donald Tramp bəyan edib ki, Rusiyaya Ukraynadakı müharibənin dayandırılması ilə bağlı razılaşma əldə etmək üçün 8 avqusta qədər vaxt verir.

## Sitat guşəsi



"Bütün hallarda Kaxa Kaladze birinci turda qalib gələcək. Hazırda gedən proseslərə baxdıqda, Kaladze üçün 60 faizdən yüksək nəticə tamamilə real görünür. Qalanı xalqın iradəsinə bağlı olacaq, lakin bütün sorğular göstərir ki, xalqın simpatiyası onun tərəfindədir."

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Sülh olmasa, inkişafdan və irəliləyişdən danışmaq mümkün deyil. Bugünkü sülh, "Gürcü Arzusu – Demokratik Gürcüstan"ın siyasətinin nəticəsidir. Bu siyasətə görə partiyamızın fəxri sədri Bidzina İvanişviliyə xüsusi təşəkkürümü bildirirəm".

**Kaxa Kaladze,**
**Tbilisi meri vəzifəsinə namizəd.**



"Medvedev (Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini - Qeyd) nüvə silahı haqqında danışmağa başladı və nüvə silahına gəldikdə, biz hazır olmalıyıq. Biz isə tam hazırıq".

**Donald Tramp**
**ABŞ - nin prezidenti.**



"Biz bir siqnal göndərməliyik: bütün Qəzzanı ələ keçirməli, İsrailin bütün zolaq üzərində suverenliyini elan etməli, HƏMAS-ın hər bir üzvünü məhv etməli və fələstinlilərin Qəzzadan könüllü mühacirətinə yardım etməliyik. Bu, girovları geri qaytarmağın və müharibədə qalib gəlməyin yeganə yoludur"

**İtamar Ben-Qvir,**
**İsrailin Milli Təhlükəsizlik naziri**



"İran Nüvə Silahlarının Yayılmamasına dair Sazişin (NPT) üzvüdür və hərtərəfli qorunma (safeguards) razılaşması əsasında öz öhdəliklərinə sadiqdir və qanuni şəkildə addımlar atmağı qarşıya məqsəd qoyub"

**İsmayıl Bəqai,**
**İran Xarici İşlər Nazirliyinin mətbuat katibi.**



"Mən inanıram ki, prezident istədiyini vergiyə cəlb edə bilər. Lakin o (Tramp) bütün sərhədləri aşıb və çoxtərəfli yanaşmaya son qoymaq istəyir".

**Luiz İnacio Lula da Silva,**
**Braziliyanın prezidenti.**

## REGİON XƏBƏRLƏRİ

### Kaxeti: QİORQİ ALADAŞVİLİ BƏLƏDİYYƏLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİB



***Kaxeti bölgəsi üzrə dövlət müvəkkili Qiorqi Aladaşvili bələdiyyələrin rəhbərləri ilə növbəti işgüzar görüş keçirib.***

Bölgənin özünüidarəetmə qurumlarının rəhbərləri ilə görüşdə Qiorqi Aladaşvili sosial-iqtisadi və mədəni istiqamətdə cari məsələlər, infrastruktur layihələrinin gedişi ilə bağlı müzakirələr aparıb.

İşçi görüşdə ETSN-nin Meşə Təsərrüfatı Milli Agentliyinin nümayəndələri də iştirak ediblər. Agentliyin nümayəndələri bələdiyyə rəhbərliyini qanuna edilən dəyişikliklər və meşə fondunun idarə olunması ilə bağlı yeni yanaşmalarla tanış ediblər.

Kaxeti bölgəsi üzrə dövlət müvəkkilinin administrasiyasında keçirilən işçi görüşdə dövlət müvəkkilinin müavinləri Platon Kalmaxelidze, Qivi Metreveli və Levan Liluaşvili iştirak ediblər.

### Rustavi: AVARÇƏKMƏ ÜZRƏ GÜRCÜSTAN ÇEMPİONATI KEÇİRİLİB

***Turnirdə Tbilisi, Rustavi, Mtsxeta, Duşeti, Kutaisi, Poti və Batumidən 200-ə yaxın idmançı iştirak edib.***



Artıq 500 metr məsafəyə avarçəkmədə qalib gələn idmançılar müəyyənləşib.

Qalib idmançıları Rustavi meri Nino Latsabidze, mer müavini Otar Tatalaşvili, İdmanın İnkişafı Mərkəzinin və Avarçəkmə Federasiyasının nümayəndələri mükafatlandırıblar.

Turnir Gürcüstan Kanoe və Avarçəkmə Federasiyası və Rustavi meriyası tərəfindən təşkil olunub.

### Saqareco: "VAZHAOBA 2025" DÖVLƏT BAYRAMI QEYD OLUNUB

***Saqareco Bələdiyyəsinin Koçbaani kəndində "Vazhaoba 2025" dövlət bayramı qeyd olunub.***



Saqareco bələdiyyəsinin meri Avtandil Qulikaşvili və Şəhər Şurasının sədri Aleksi Qilaşvili toplaşan əhali qarşısında çıxış edərək onları "Vazhaoba" dövlət bayramı münasibətilə təbrik ediblər.

Tədbirdə yerli folklor ansambllarının iştirakı ilə konsert olub.

### Dmanisi: ERKƏN HOMİNİDƏ AİD YENİ TAPINTI AŞKAR EDİLİB



***Dmanisi bələdiyyəsinin Aşağı Oruzman kəndi yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı erkən hominidə aid alt çənə sümüyü aşkar edilib.***

Tapıntı arxeoloq Qiorqi Bidzinaşvilinin rəhbərlik etdiyi ekspedisiya tərəfindən aşkar edilib.

Mütəxəssislərin fikrincə, çənə sümüyü təxminən 1,8 milyon il əvvələ aid olub və Dmanisidə əvvəllər tapılmış hominid qalıqları ilə eyni dövrə təsadüf edir. Ərazidə həmçinin ibtidai heyvanların sümükləri və primitiv daş alətlər də tapılıb.

Gürcü akademik Davit Lordkipanidze bu kəşfin erkən insan təkamülü və onların ilk məskunlaşma prosesi ilə bağlı elmi araşdırmalar üçün böyük əhəmiyyət daşıdığını bildirib.

Tapılmış materiallar Gürcüstan Milli Muzeyinə təhvil veriləcək və burada onların üzərində ətraflı laboratoriya tədqiqatları aparılacaq.

## BEYNƏLXALQ HƏYAT

### BAYRAKTAR: ENERJİ RESURSLARININ İXRACI YAXIN VAXTLARDA ZƏNGƏZUR DƏHLİZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏCƏK



***Yaxın gələcəkdə Zəngəzur dəhlizi üzərindən bütün enerji resursları və logistik marşrutlar Türkiyəyə çatdırılacaq.***

Bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar Türkiyə-Suriya Qaz Boru Kəmərinin açılış mərasimi çərçivəsində jurnalistlərə açıqlamasında bildirib.

Nazirin sözlərinə görə, hazırda Azərbaycandan elektrik enerjisi Gürcüstan üzərindən Türkiyəyə ötürülür:

*"Eyni zamanda Orta Asiyadakı digər enerji mənbələri və logistik imkanlar da Azərbaycan üzərindən Türkiyəyə, oradan isə Avropaya çatdırılacaq"*, - deyə o qeyd edib.

A. Bayraktar əlavə edib ki, Azərbaycanın təbii sərvətlərinin - neft, qaz və elektrik enerjisinin Türkiyəyə ixracı ilə bağlı bütün layihələr paralel şəkildə və koordinasiyalı formada icra olunur:

*"Bu istiqamətdə ciddi irəliləyişlər əldə olunub. İndiyədək həyata keçirilən əsas layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərini və Naxçıvan-Türkiyə elektrik interkonnektorunu qeyd edə bilərəm"*, - deyə nazir vurğulayıb.

Qeyd edək ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya hökuməti arasında bu yaxınlarda imzalanmış sənədə əsasən, təbii qazın nəqli üçün bütün texniki hazırlıqlar tamamlanıb və avqustun 2-dən qaz ixracına başlanılıb. Layihənin ilk mərhələsində Suriyaya ildə 1,2 milyard kubmetr təbii qazın ixracı planlaşdırılır. Qaz Türkiyənin Kilis şəhəri vasitəsilə Hələb və Homsdakı elektrik stansiyalarına çatdırılacaq və elektrik enerjisi istehsalında istifadə olunacaq. Bu proses nəticəsində 1 200 - 1 300 meqavatlıq elektrik istehsalı gücünə nail olunması nəzərdə tutulur.

### İRAN PREZİDENTİ MƏSUD PEZEŞKİAN PAKİSTANA RƏSMİ SƏFƏR EDİB



***İran prezidenti Məsud Pezeşkian ikigünlük rəsmi səfərlə Pakistana gedib.*** Səfər Pakistanın Baş naziri Şahbaz Şərifin dəvəti ilə həyata keçirilib.

Pakistan Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, prezident Pezeşkian yüksək səviyyəli nümayəndə heyətinə rəhbərlik edir.

Səfər çərçivəsində İran prezidenti Pakistan rəhbərliyi ilə görüşlər keçirib, həmçinin geniş tərkibdə rəsmi danışıqlarda iştirak edib. Görüşlərin əsas mövzularının regional təhlükəsizlik, enerji əməkdaşlığı və iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi olub.

Qeyd edək ki, bu, Məsud Pezeşkianın prezident seçildikdən sonra qonşu ölkəyə ilk rəsmi səfərlərindən biridir.

### DONALD TRAMP ONLARLA ÖLKƏYƏ TİCARƏT TARİFLƏRİ TƏTBİQ EDİB

***ABŞ-nin prezidenti Donald Tramp idxal rüsumlarını əhəmiyyətli dərəcədə artırıb və 69 ölkəyə yeni ticarət tarifləri tətbiq edib.*** Bu ölkələr arasında ABŞ-nin əsas müttəfiqləri də var.



Bu barədə "Reuters" məlumat yayıb.

Trampın imzaladığı sərəncama əsasən, Kanadadan gətirilən məhsulların əksəriyyətinə 35%, Braziliyadan – 50%, Hindistandan – 25%, Tayvandan – 20% və İsveçrədən – 39% idxal rüsumu tətbiq olunacaq.

Qərar ümumilikdə 69 ticarət tərəfdaşına qarşı idxal rüsumlarının 10%-dən 41%-ə qədər artırılmasını nəzərdə tutur. Digər bütün ölkələrdən gətirilən məhsullara isə standart olaraq 10%-lik idxal vergisi qoyulacaq.

Bu addım Trampın bəyan etdiyi iqtisadi proteksionizm siyasətinin davamı kimi qiymətləndirilir və məqsədi Amerika istehsalını qorumaq, xarici məhsullarla rəqabəti azaltmaqdır.

### ZELENSKİ: UKRAYNA VƏ RUSİYA ARASINDA 1 200 NƏFƏRİN MÜBADİLƏSİ İLƏ BAĞLI RAZILIQ VAR



***Ukrayna prezidenti Volodimir Zelenski bildirib ki, Rusiya ilə 1 200 nəfərin qarşılıqlı mübadiləsinə dair razılıq mövcuddur.***

Zelenski bu barədə Ukraynanın Təhlükəsizlik Şurasının katibi Rustem Umerovla görüşdən sonra məlumat verib.

Prezidentin sözlərinə görə, hazırda mübadilə ediləcək şəxslərin siyahılarının üzərində iş aparılır.

Görüş zamanı Umerov Zelenskiyə rusiyalı nümayəndələrlə aparılan danışıqlar və əlaqələr barədə də məlumat verib.

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

www.sak.ge • ელ. ფოსტა: sak@sak.ge
№2 (9834) 2025 წლის 9 იანვარი, ხუთშაბათი.

*4 avqust 2025-ci il*

**"SAKARTVELOS RESPUBLİKA"**

### *Avropa üçün "süqut əsri" başlayıb (ixtisarla)*

Avropa Komitəsinin prezidenti Ursula Fon der Lyayen və ABŞ-nin prezidenti Donald Tramp tərəfindən 27 iyul 2025-ci ildə imzalanan ABŞ – Aİ ticarət müqaviləsi barədə ekspertlərin ən çox istifadə etdikləri söz "alçaldıcı"dır.

"Bu səhər Makron tərəfdarlarının utanması və respublikaçıların susqunluğu Komitə prezidentinin gətirdiyi alçaldıcılıq barədə çox şey deyir. Onlar bizə güclü Avropa vədi veriblər, lakin təslim olan Avropa əldə etdik", - deyə Fransanın "Milli Birlik" hərəkatının prezidenti Cordan Bardela "X" sosial şəbəkəsində yazıb.

Alman iqtisadçı Klemens Fuest və belçikalı Mark de Vos da müqaviləni "alçaldıcı" adlandıraraq, Aİ-nin məğlub olduğunu qeyd ediblər.

Ticarət siyasəti Avropa İttifaqının müstəsna səlahiyyətinə aid olduğuna görə, son aylar ərzində danışıqları aparma səlahiyyəti sadəcə Aİ üzvü 27 ölkəni təmsil edən Fon der Lyayenin rəhbərlik etdiyi Komitənin öhdəsində idi. Bununla belə, əvvəllər olduğu kimi, bu dəfə də Brüssel rəhbərliyi öz səriştəsizliyini və zəifliyini nümayiş etdirib.

"Günümüzdə Avropa İttifaqı getdikcə XIX əsrdəki Çinə bənzəyir: hələ də heç kimin zəbt etmədiyi, lakim xarici nüfuz və istismar üçün əlverişli zəngin imperiyaya ", - deyə Polşanın "Krytyka Polityczna" hərəkatının qurucusu Slavomir Sirakovski 2019-cu ildə yazıb.

Çinli tarixşünaslar 1839 – 1949-cu illər arasındakı dövrü "alçalma dövrü" adlandırır. Sirakovskinin təhlilindən altı il sonra demək olar ki, Avropa öz "alçalma dövrü"nə daxil olub. Çinin əsrlik iztirabı 1839 – 1842- ci və 1856 – 1860 – cı illərdəki iki opium müharibəsi ilə başlayıb. Birinci Tiryək Müharibəsi nəticəsində Çini idarə edən Mancur Tsin xanədanı İngiltərə qarşısında məğlub olaraq, Honkonq şəhərinin Böyük Britaniyaya verilməsi, ölkə limanlarının xarici tacirlər üçün açılması və reparasiyaların ödənilməsi barədə Nankin Müqaviləsini imzalayıb. Bir neçə il sonra Çin üçün daha ağır məğlubiyyət ilə nəticələnən İkinci Tiryək Müharibəsi baş verib. Bu dəfə bağlanılan Tiantsin Müqaviləsi və Pekin Konvensiyası qərb ölkələri vətəndaşlarına Çində imtiyaz bəxş edib həm də ölkədə narkotik ticarətinə icazə verib. Həmin dövrdə Çin imperiyası daxili korrupsiya və uğursuz islahatlar səbəbilə çox zəifləmişdi. 1911-ci ildə ölkənin düşdüyü vəziyyətdən narazı ordu zabitləri Sinhay İnqilabını başladaraq, Tsin Mancur xanədanını devirib və ölkəni respublikaya çevirib.

Çin tarixinin sözügedən dövrü İkinci Dünya Müharibəsindən sonra kommunistlərin hakimiyyətə gəlməsi və ölkə suverenliyinin bərpa edilməsi ilə sona çatıb.

Bir qrup avropalı ekspert Avropa İttifaqının hazırki vəziyyəti ilə Çinin "alçalma dövrü" arasında paralellərin olduğunu iddia edir. Onlar Avropanın "alçalma dövrü"nün başlanğıcı olaraq 2015-ci ili hesab edirlər. Məhz həmin dövrdə Brüsselin miqrasiya siyasəti nəticəsində bir çox başqa mədəniyyət mənsubları Avropa ölkələrinə gəlib. Həmin ekspertlərin fikrinə görə, Aİ bürokratiyasının bu addımı strateji səhv olub.

Eyni ekspertlərin fikrincə, Avropa İttifaqı son illərdə xarici dövlətlərlə özü üçün əlverişli olmayan müqavilələr imzalamağa can atıb. Bunun ən yaxın və xoşagəlməz misalı məqalənin əvvəlində qeyd edilən ABŞ – Aİ arasında imzalanan ticarət müqaviləsidir. ABŞ-nin Aİ ixracının 70 faizinə 15 faizlik rüsum təyin etməsi qarşılığında Aİ öz bazarlarını 750 milyard dollarlıq ABŞ istehsalı enerji məhsulları üçün açır. Eləcə də Aİ ABŞ iqtisadiyyatına 600 milyard dollarlıq investisiya etməyi də boynuna götürür.

Aİ ilə Tsin imperiyası arasındakı əsas fərq isə Aİ-nin fiziki müharibədə məğlub olmamasıdır.

### *Şovi faciəsi bir daha baş verməyəcək!*

"İki il keçsə də, bütün ölkəmizi əhatə etmiş dəhşətli faciəni hamımız hələ də yaxşı xatırlayırıq. Ölənləri yad etmək və gələcəkdə belə bir faciənin baş verməməsi üçün əlimizdən gələni etmək borcumuzdur", - deyə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyan edib.

"Parlamentin sədri Şalva Papuaşvili, Tbilisi meri Kaxa Kaladze, Nazirlər Kabinetinin üzvləri və yerli hakimiyyətin nümayəndələri ilə birlikdə təbii fəlakət qurbanlarını yad etmə mərasimində iştirak etdim və mərhumların ailələri ilə görüşdüm.

Mən təbii fəlakət qurbanlarına həsr olunan və yaxın vaxtlarda başa çatacaq memorialın tikinti prosesi ilə də tanış oldum. Bundan əlavə, yaxın vaxtlarda artıq layihəsi hazır olan 13 Assurialı Atanın adına Məbədin tikilməsinə başlanacaq.

Gələcəkdə belə faciələrin baş verməməsi üçün əlimizdən gələni etmək bizim borcumuzdur. Əvvəllər buzlaq uçqununun baş verməməsi səbəbilə bu sahədə heç bir araşdırma aparılmayıb. Biz İsveçrə şirkəti ilə birgə araşdırma aparmağa başlamışıq. Biz bütün ölkə çərçivəsində buzlaqları, eroziya proseslərini araşdıracağıq ki, müvafiq risklərin qarşısını almaq imkanı əldə edək...", - deyə Baş nazir bildirib.

### *Dedoplitskaroda "Eliaoba" bayramı qeyd edilib*

Gürcüstanın Dedoplitskaro şəhərində "Dedoplitskarooba 2025" ənənəvi xalq bayramı və "Eliaoba" kilsə bayramı qeyd edilib.

İlia dağında yerləşən VI əsrə aid İlia Tezbiteli məbədində bayram mərasimi keçirilib. Dini bayram qeyd edildən sonra şəhər mərkəzində müxtəlif maarifləndirici və əyləncəli tədbirlərlə "Dedoplitskarooba" bayramı qeyd edilib. Dedoplitskaronun Mədəniyyət Evinin həyətində rəssam Pikria Zaridzenin əsərlərinin sərgisi təşkil edilib və Mamuka Kvaratsxelia və Laşa Bekauriyə həsr edilmiş "Üçyüzbirinciyə" adlı bioqrafik kitabın təqdimat mərasimi keçirilib. Ənənəvi olaraq Dedoplitskaronun fəxri sakinləri mükafatlandırılıb.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

• İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Bəqai Vaşinqtonla nüvə proqramı üzrə birbaşa danışıqların aparılması imkanını rədd edib. Mətbuat konfransı zamanı jurnalistin Amerika tərəfi ilə bu mövzuda birbaşa danışıqların aparılması barədə sualına diplomat "Xeyr, bundan söhbət gedə bilməz", - deyə cavab verib.

• BMT Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üçün Özbəkistanda aqro-innovasiya mərkəzinin yaradılması ideyasını müzakirə edib.

• İran maliyyə sektorunda islahat planlaşdırır. "Financial Times" nəşri yazır ki, ölkə hakimiyyəti rialı denominasiya etmək niyyətindədir. Ölkə hakimiyyəti pul əməliyyatlarında lazımsız sıfırlardan qurtulmağı və dövriyyəyə yeni sikkə təqdim etməyi planlaşdırır.

• Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Böyük Britaniyanın Baş naziri Key Starmer ilə telefon danışığı aparıb. Bildirilir ki, tərəflər Qəzza zolağında baş verənləri müzakirə ediblər.

• Türkmənistan mətbuatı xəbər verir ki, BMT-nin Baş katibi Antonio Quterreş beynəlxalq ictimaiyyəti dənizə çıxışı olmayan ölkələrə dəstək üçün səyləri artırmağa çağırıb.

• "Politico" nəşri anonim avropalı diplomata istinadən yazır ki, Avropa İttifaqı Pekinin Ukraynadakı müharibədə Rusiyaya dəstəyinə görə Çinə qarşı sanksiyalar tətbiq etməyi düşünür.

**Diplomatiya**

• Gürcüstanın Baş naziri İrakli Kobaxidze Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb. Məlumatı Gürcüstan hökumətinin administrasiyası yayıb. Görüşdə Gürcüstan və Özbəkistan arasında siyasi və iqtisadi əlaqələrin inkişafının müsbət dinamikası müzakirə olunub.

• Maka Boçorişvili: Bu il BMT-nin Yüksək Səviyyəli Konfransının diqqət mərkəzində Mərkəzi Asiya ölkələrinin əlaqəsi var və bu kontekstdə Gürcüstanın konfransda iştirakı çox vacibdir.

• Tamar Taliaşvili ABŞ Dövlət Protokolunun rəhbəri, səfir Monika Karaulinin şərəfinə keçirilən tədbirdə iştirak edib.

**İqtisadiyyat**

• Acarıstan hökumətinin sədri Sulxan Tamazaşvili bildirib ki, Acarıstanın Çixuri dağında Avropanın ən uzun ikizolaqlı ziplayn (polad tel vasitəsilə havada əyləncəli hərəkət) açılıb.

• "Travel Door" turizm şirkətinin baş meneceri Tamuna Papava deyir ki, yay turizm mövsümü Gürcüstan üçün kifayət qədər fəal başlayıb.

• Dünya Bankının (DB) araşdırmasına görə, son illərdə əldə edilən irəliləyişlərə baxmayaraq, Gürcüstanda sabit internet sürətinin aşağı olması mühüm problem olaraq qalır.

**Kriminal**

• Gürcüstan Maliyyə Nazirliyinin İstintaq Xidməti külli miqdarda aksiz markası olmayan malların saxlanması, daşınması və satışı ilə bağlı üç fakta görə üç nəfəri həbs edib.

**Ekologiya**

• Yaponiya hökuməti Yerin orbitini təhlükəli fraqmentlərdən və dağıntılardan təmizləməyə yönəlmiş beynəlxalq xartiya hazırlamağı planlaşdırır.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

### Ərik



Ləzzətli meyvə olan ərik gülçiçəyikimilər fəsiləsinin gavalı cinsinə aid meyvədir. Meyvənin elmi adı "Prunus"dur. Əriyin mənşəyi, dadı, yetişmə vaxtı və istifadə məqsədi baxımından fərqlənən müxtəlif növləri var. Sözügedən meyvənin növləri iki əsas kateqoriyaya bölünür: yabanı və mədəni ərik. Meyvənin ən məşhur növləri bunlardır: Qafqaz məntəqəsində yayğın orta ölçülü, şirin və ya şirin – turş dada malik adi ərik "Prunus Armeniaca"; Çin və Koreyada yayğın, soyuğa davamlı və kiçik turş meyvəli Mançur əriyi "Prunus Mandshurica"; kiçik meyvəli və soyuq iqlimə davamlı Sibir əriyi "Prunus Sibirica"; qavalı ilə ərik arasında keçid növü olan və qara və ya bənövşəyi rəngə malik Qafqaz əriyi "Prunus Dasycarpa" , eləcə də Qafqaz və Orta Asiyanın dağlıq ərazilərində yayğın olan yabanı ərik növləri.

Qədim zamanlardan bəşər əriyi becərib və istehlak edib. Sözügedən meyvənin vətəni Orta Asiya hesab olunur. Əfsanəyə görə, Babilistandan (Qədim İraqdan) qərbə köçən sakinlər Qafqaz dağlarından aşmaqla özləri ilə ərik ağacının tinglərini daşıyaraq, onları yol boyu əkib və nəticədə gözəl ərik bağı yaranıb. Daha sonra yaxınlıqda yerləşən kəndlərin sakinləri gümrahlığı və uzunömürlülüyü, qızlar isə qeyri-adi gözəlliyi ilə fərqlənməyə başlayıb.

Qədim Yaponiyada əriyin yumşaq ətinin və şirəsinin insan ömrünü uzatdığına və orqanizmi cavanlaşdırdığına inanılıb. Qeyd edək ki, bu meyvə artıq 2000 ildən çoxdur ki, Qafqaz bölgəsində becərilir. Mətbəxdə ərikdən geniş istifadə edilir: bu meyvə çiy halda yeyilir, ondan mürəbbələr, kompotlar və qənnadi məmulatlar hazırlanır.

**Ərik insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir.** Bunun səbəbi meyvənin tərkibindəki vitamin və minerallardır. Ərik tərkibindəki A vitamini səbəbilə göz sağlamlığı üçün faydalı meyvədir. Meyvə gözün tor qişasını gücləndirir və gecə görmə qabiliyyətini artırır. Əriyin tərkibindəki liflər bağırsağın fəaliyyətini normallaşdırır, həzm sisteminə faydalı təsir göstərir. Meyvə C vitamini, antioksidantlar və polifenollar ilə olduqca zəngindir ki, bu da orqanizmi virus və infeksiyalardan qoruyur, immunitet sistemini gücləndirir. Bundan əlavə, ərik dəri, ürək – damar və sümük sağlamlığı üçün faydalıdır. Meyvə dərinin elastikliyini yüksəldir, qurudulmuş halda hemoqlobini artırır, ürək damarlarına faydalı təsir göstərir. Eləcə də meyvə yay mövsümündə bədəni nəmləndirir və enerjini artırır.

**Amma hər qida kimi, ərik də düzgün istehlak edilmədiyi halda insan orqanizmi üçün zərərli ola bilər.** Ərik həddindən artıq istehlak edildikdə çox miqdarda lif və sorbitol ehtiva etməsi səbəbilə mədə - bağırsaq probleminə səbəb ola bilər. Şəkərli diabetdən əziyyət çəkən şəxslər bu meyvənin şirin növlərinin istehlakında ehtiyatlı davranmalıdırlar, çünki şirin əriklərdə fruktoza və təbii şəkər miqdarı olduqca yüksəkdir. Hipotoniya (aşağı təzyiq) problemi olan insanlarda çox miqdarda əriklə qidalandıqda halsızlığa səbəb olur.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏRZƏ-HƏRZƏ** *zərf* Mənasız, boş-boş

*Hərzə-hərzə danışıb gülməz idim,*
*Ər nə şey olduğunu bilməz idim.*

M. Ə. Sabir

**HƏRZƏKAR, HƏRZƏGU** *sif.* və *is.* *[ər.* hərzə və *fars.* ...kar, ...gu] Hərzə danışan, boşboğazlıq edən; boşboğaz. *Hərzəkar adam. Hərzəkarın biridir.*

*Baxma firibinə hərzəguların,*
*Aralıq vurmaqdı işi buların.*

Q. Zakir.

**HƏRZƏLİK** *is.* Boşboğazlıq, naqqallıq, zəvzəklik; həyasızlıq, sırtıqlıq, ədəbsizlik, utanmazlıq, ağzıyavalıq, ağzıpərtövlük.

■ **Hərzəlik etmək** – hərzə-hərzə danışmaq, ədəbsiz danışmaq, yava-yava sözlər danışmaq, heyvərə sözlər demək, ağzına gələni danışmaq.

**HƏS** *təql.* Minik və ya qoşqu heyvanını dala vermək üçün çıxarılan səs.

*"Həs" deyib atın yüyənini dartdı.*

**HƏSB-HAL** *is. [ər.]* Baş-başa söhbət, hallaşma, dərdləşmə, bir-birinə öz halından danışma. *Qocaların həsb-halı.*

*Arabir səssiz də danışır insan,*
*Arabir sözsüz də keçir həsb-hal.*

S. Vurğun.

■ **Həsb-hal etmək** – baş-başa verib söhbət etmək; bir-birinə öz halından danışmaq, dərdləşmək, hallaşmaq.

*Sübhə qədər eləyir öz-özüylə həsb-hal,*
*Araq qədəhlərini boşaltdıqca dalbadal.*

S. Rüstəm.

**HƏSƏD** *is. [ər.]* 1. Paxıllıq.

*Onun saf qəlbində nə qəzəb, nə kin,*
*Nə həsəd, nə də ki, bir xəyanət var.*

S. Vurğun.

■ **Həsəd aparmaq (etmək, çəkmək)** – paxıllıq etmək, paxıllığını çəkmək.

*Hər kəs eşqimizə həsəd aparsın,*
*Hər kəs hüsnümüzün olsun heyranı!*

M. Müşfiq.

**HƏSİR** *is. [ər.]* Bəzi ağacların liflərindən, küləşdən, qamışdan və s. - dən toxunan məmulat (yerə sərmək və s. məqsədlər üçün işlədilir).

*Ustalar əllərini yuyub, gavalı ağacının altına salınmış həsirin üstə əyləşdilər.*

Çəmənzəminli.

// Həmin məmulatdan toxunmuş və ya düzəldilmiş. *Həsir şlyapa.*

*Ranqunun kənarları yüngül qamış və ya həsir evlərdən ibarətdir.*

M. İbrahimov.

◊ **Bir həsir, bir Məmmədnəsir** – çox kasıb, yoxsul, heç bir şeyi olmayan adam haqqında.

[Bəbir bəy:] *Sənin kimi oğlanı belə bir həsir, bir Məmmədnəsir görəndə vicdanım ağrıyır.*

Mir Cəlal.

**HƏSİRÇİ** *is.* Həsir toxuyan adam, usta.

**HƏSLƏMƏK** Geri çəkilmək (bəzən qorxudan, ehtiyat edərək). *Qorxudan hasləmək. Hərif həslədi.*

[Kazım:] *Xan .. mənim zarafatımdan həslədi.*

Çəmənzəminli.

**HƏSR** *is. [ər.]*: **həsr etmək** – yalnız bir işə, bir şəxsə və s.-yə vermək, onun üçün ayırmaq, ona sərf etmək. *Bütün həyatını incəsənətə həsr etmək. Vaxtının çoxunu mütaliəyə həsr etmişdir. Bütün qüvvəsini sülh uğrunda mübarizəyə həsr etmək.*

*Jurnalın rəhbəri Cəlil Məmmədquluzadə bütün qüvvə və enerjisini, bütün fikir və vaxtını jurnala həsr etmişdi.*

M. İbrahimov.

**HƏSRƏT** *is. [ər.]* 1. Bir şeyi və ya birini bir daha görmək, qovuşmaq arzusu. *Vətən həsrəti. Övlad həsrəti.*

*[Fitnə:] El qızıyam mən, Bəxtiyar,*
*Ürəyimdə həsrətim var.*

A. Şaiq.

**HƏSRƏTKEŞ** *sif. və is.* [*ər.* həsrət və *fars.* ...keş] Həsrət çəkən, bir şeyin həsrətində olan. *Həsrətkeş ana.*

*İki həsrətkeş bir-birinə sarmaşdı.*

"Əsli və Kərəm".

**HƏSRƏTLİ** *sif.* 1. Ürəyində həsrəti, arzusu, istəyi olan; diləkli, arzulu; həsrətkeş. *Həsrətli valideyn. Həsrətli sevgililər.*

*Beyrək və yoldaşları cəfakeş kürəkçilərlə həsrətli doğma qardaşlar kimi bir-birlərinə sarmaşdılar.*

M. Rzaquluzadə.

2. Həsrət ifadə edən.

*Həsrətli baxış.* [Sarıköynək] *məndən ayrılarkən həsrətli bir ah çəkdi.*

S. Hüseyn.

*Həsrətli gözlərlə boylanır qarı,*
*Külləri soyumuş ocağa sarı.*

S. Vurğun.

**HƏSSAS** *sif. [ər.]* 1. Çox tez hiss edən, duyan, başa düşən, dərk edən, qavrayan. *Həssas adam.*

[Zakir:] *Axı Mehriban həssas qızdır.*

H. Seyidbəyli.

2. Qıcıqlanmağı hiss edən, duyan. *Həssas hüceyrələr. Həssas əsəb toxumaları. Həssas dəri.*

3. *xüs.* Ən cüzi xarici təsiri əks etdirə bilən. *Həssas cihaz. Həssas tərəzi.*

**HƏSSASLIQ** *is.* 1. Həssas adamın xüsusiyyəti, keyfiyyəti.

[Dilbər Əbdüləli bəyə:] *Sizdə cəsarət və həssaslıq yoxsa, öz bəxtinizdən küsün.*

C. Cabbarlı.

2. Həssas şeyin keyfiyyəti. *Cihazın həssaslığı. Dərinin həssaslığı.*

3. **Həssaslıqla** şəklində *zərf* – diqqətlə, qayğı ilə, qayğıkeşliklə, ürək yanğısı ilə, xeyirxahlıqla. *Şikayətçini həssaslıqla dinləmək.*

**HƏŞƏM** *is.* 1. Döyülmək üçün dərzdən açılıb xırmana tökülən taxıl.

*Vələ qoşulmuş öküzlər, atlar həşəmin üstündə günortaya qədər hərlənir, birtəhər dəni küləşdən ayıra bilirdilər.*

B. Bayramov.

■ **Həşəm etmək** – taxılı dərzlərdən açıb döyülmək üçün xırmana tökmək. [Uşaqlar:] *Eybi yoxdur, biz həşəm eləyənədək gün qızar.*

Q. İlkin.

2. Quru ot, ələf.

*Qızıl gülü dərərlər;*
*Həşəm üstə sərərlər,*
*Rəngimi yar saraldıb,*
*Qızdırmadan görərlər.*

(Bayatı).

**HƏŞƏMƏT** *is. [ər.]* Əzəmət, böyüklük, ululuq, şan və calal.

*Tarxan Nüşabənin həşəmət və əzəmətinə heyran qalmışdır.*

A. Şaiq.

**HƏŞƏMƏTLİ** sif. Əzəmətli, ulu, böyük, calallı.

[Qətibə:] *Bəli, həşəmətli mələkə! Hüsaməddin həzrətlərinin özü şəxsən məktubu mənə tapşırdı.*

M. S. Ordubadi.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!

***Hörmətli oxucular!***



Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

## ცოცხალი ურთიერთობის ძალა (Tsotsxali urtiertobis dzala)
## Canlı münasibətlərin gücü

**თანამედროვე სამყაროში ტექნოლოგია ყოველდღიურობის განუყოფელი ნაწილი გახდა.** (Tanamedrove samğaroşi teknoloqia ğoveldgiurobis qanuğopeli natsili qaxda.) **– Müasir dünyada texnologiya gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib.**

**სწორია, თანამედროვე ტექნოლოგიამ კომუნიკაცია გაგვიმარტივა, მაგრამ მან პირისპირ ურთიერთობებს სიღრმე და ემოცია დააკლო.** (Stsoria, tanamedrove teknoloqiam komunikatsia qaqvimartiva, maqram man pirispir urtiertobebs siğrme da emotsia daaklo.) **– Doğrudur, müasir texnologiya ünsiyyəti asanlaşdırsa da, canlı münasibətlərdən dərinlik və duyğunu alıb.**

**ჩვენ ვსაუბრობთ მესენჯერში, ვწერთ სოც. ქსელებში, ვვიზიარებთ ემოციებს ემოჯებით, მაგრამ გვავიწყდება ყველაზე მთავარი – რეალური ურთიერთობა.** (Çven vsaubrobt mesencerşi, vtsert sots. kselebşi, vviziarebt emotsiebs emocebit, maqram qvavitsğdeba ğvelaze mtavari – realuri urtiertoba.) **– Biz messencerdə yazışır, sosial şəbəkələrdə paylaşımlar edir, duyğularımızı smayliklərlə ifadə edirik. Amma ən vacib şeyi unuduruq – gerçək münasibəti.**

**პირისპირ შეხვედრისას თვალებში ჩავხედავთ, ვგრძნობთ გულწრფელ ემოციას, ვხედავთ სხვის რეაქციას, რასაც ვერ ცვლის ვირტუალური ჩეთი.** (Pirispir şexvedrisas tvalebşi çavxedavt, vqrdznobt qultsrpel emotsias, vxedavt sxvis reaktsias, rasats ver tsvlis virtualuri çeti.) **– Üz-üzə görüşdə bir-birimizin gözlərinə baxırıq, səmimi hissləri duyuruq, qarşıdakı insanın reaksiyasını görürük – bunu virtual söhbət əvəz edə bilməz.**

**ცოცხალი შეხვედრა სიტყვებზე მეტს ამბობს – თვალის მიმიკა, ხმის ტონი და გრძნობები, რომლებიც ეკრანის მიღმა იკარგება.** (Tsotsxali şexvedra sitğvebze mets ambobs tvalis mimika, xmis toni da qrdznobebi, romlebits ekranis miğma ikarqeba.) **– Canlı görüş sözlərdən çox şey deyir; baxış, səs tonu və hisslər, bunlar ekran arxasında itib gedir.**

**ცოცხალი საუბარი უფრო ღრმა კავშირს ქმნის, იზრდება ნდობა, ჩნდება სიახლოვე.** (Tsotsxali saubari upro ğrma kavşirs kmnis, izrdeba ndoba, çndeba siaxlove.) **– Canlı ünsiyyət daha dərin bağ yaradır, etibar artır, yaxınlıq yaranır.**

**მოდით, ნუ დავკარგავთ რეალურ ურთიერთობებს. მოვძებნოთ დრო ცოცხალი შეხვედრებისთვის – მათშია გულწრფელი სითბო და სიხარული.** (Modit, nu davkarqavt realur urtiertobebs. Movdzevnot dro tsotsxali şexvedrebistvis – matşia qultsrpeli sitbo da sixaruli.) **– Gəlin, gerçək münasibətləri itirməyək. Canlı görüşlər üçün zaman ayıraq, çünki səmimi istilik və sevinc ondadır.**

# QÜRBƏTDƏN GÖRÜNƏN VƏTƏN



Müasir Azərbaycan ədəbiyyatının sayılıb-seçilən istedadlı qələm sahiblərindən biri də Xaqani Qayıblıdır. O, 30 ildən çoxdur ki, qürbətdə Vətən yaradan, qürbətdə Vətənləşən, doğulduğu ana vətəni Gürcüstanı, milli vətəni Azərbaycanı və Azərbaycan ədəbiyyatını qürbətdə layiqincə təmsil və təbliğ edən böyük könül adamıdır. Xaqani Qayıblı böyük könül adamı olmaqla bərabər, həm də heç şübhəsiz ki böyük bir türkdür. Qələm dostu şair Rafiq Hümmət demiş: "Baltik sahillərində yaşayan böyük bir türk".

Xaqani Qayıblı türkün genetik kodunu, milli kimliyini ruhunda, canında daşıyan, türk dünyası ilə bağlı misilsiz işlər görən azman bir türk aydınımızdır. Biz Vətəndən qürbətə doğru boylananda Xaqani Qayıblı ucalığını hər prizmada görə bilirik. O, ömrünün yarısını qürbətdə yaşasa belə istər ictimai-siyasi, istər elmi, istərsə də bədii fəaliyyəti ilə daima doğma vətəninə xidmət etməkdədir.

Hələ vaxtı ilə 80-cı illərdə Tərcümə Mərkəzi tərəfindən Estoniyanın "Şərqi Avropanın Oksfordu" adlanan 400 illik Tartu Universitetinə oxumağa göndərilən gənc Xaqani Qayıblı, ona olan bütün etimadları (Vaqif Bayatlı yaşasın! Aydın Məmmədovun, Arif Acaloğlunun ruhu şad olsun!) doğruldaraq Tartu Universitetinin eston dilində bitirən ilk azərbaycanlı tələbəsi oldu.

O, daha da öz üzərində çalışaraq "Eston və türk dillərində feil quruluşlarının müqayisəsi" adlı elmi işi ilə dünya dilçiliyində Fin-Uqor və Türk - Tatar dilləri arasındakı qohumluq əlaqələrini araşdıran ilk azərbaycanlı alim kimi tarixə düşdü. Baltik sahillərində yaşayan bu azman türk bu gün Estoniya prezidentinin türk dilləri üzrə şəxsi tərcüməçisidir, fəxri Estoniya vətəndaşlığı alan ilk soydaşımızdır.

Xaqani müəllimin ictimai - siyasi fəaliyyəti o qədər böyükdür ki, biz onu vətəndən üzü qürbətə doğru yönələndə qürbətdə olan bir vətənimiz, nəfəsliyimiz kimi görürük. Dünya Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvü, sədr müavini, Estoniya - Azərbaycan cəmiyyətinin sədri kimi onun diaspor fəaliyyəti köksümüzü qabardır, o, ölkəmizin ədəbi-mədəni sərvətlərini təbliğ edən, azərbaycanlılarımızın hüquq və mənafelərini xarici ölkələrdə müdafiə edən dayağımız, güvənc yerimizdir.

Onun ictimai-siyasi fəaliyyəti dövlət tərəfindən də yüksək qiymətləndirilib, cənab Prezident Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə Xaqani Qayıblını "Tərəqqi" medalı ilə təltif edib. Xaqani müəllimə halal haqqı çatan medalının Vətəninin bir parçası olan Şuşada Dünya Azərbaycanlılarının V Qurultayında (2022) təqdim edilməsi də əlamətdar hadisədir. Xaqani Qayıblı canı qədər sevdiyi vətəni Azərbaycanın adını harda yaşamasından asılı olmayaraq uca tutan, doğma xalqını, vətənini sevən, ona ləyaqətlə xidmət edən böyük azərbaycanlıdır.

Xaqani Qayıblının ictimai-siyasi, elmi fəaliyyəti kimi, bədii fəaliyyəti də olduqca zəngin və çox şaxəlidir. Xaqani Qayıblı qürbətdə yaşasa da müasir Azərbaycan ədəbiyyatının Borçalı qolunun, Borçalı ədəbi mühitinin istedadlı şairlərindən biridir. O, həm də bacarıqlı və peşəkar tərcüməçidir. Azərbaycan ədəbiyyatının Estoniyada tanıdılması və təbliğində böyük işlər görür.

Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestini, "Poçt qutusu" hekayəsini, Vaqif Səmədoğlunun "Mən burdayam, İlahi" kitabını, Kamal Abdullanın "Kim dedi ki, Simurq quşu var imiş" pyesini, Afaq Məsudun əsərlərini və s. Azərbaycan dilindən eston dilinə çevirib. Xaqani müəllimin ədəbiyyatımızın təbliğindəki gələcək fəaliyyətlərindən biri də 20 Azərbaycan yazarını estonlara, 20 eston yazarını da azərbaycanlılara tanıtmaq istəyidir.

Azərbaycan mühacirət poeziyasının çağdaş mərhələsində Xaqani Qayıblı imzasını xüsusi vurğulamaq istərdim. Düzdü, bu mərhələdə poeziyada Məmməd İsmayılın, Afaq Şıxlının, Nəsib Nəbioğlunun, Rauf Qaraişığın, nəsrdə Çingiz Hüseynovun (Allah rəhmət eləsin!), Vahid Qazinin, Eluca Atalının və.b ismini qeyd etmək də yerinə düşərdi.

Xaqani Qayıblı müasir şeirimizə yeni rənglər qatan, öz orjinallığı ilə diqqət çəkən istedadlı şairlərimizdən biridir. Keçən əsrin 80-cı illərində ədəbiyyata gələn şair obrazlı təfəkkürü, poetik düşüncə tərziylə müasir şeirimizdə də seçilən imzalardandır. Xaqani Qayıblı poeziyasının novatorluğu, poetik sözünün qüdrəti haqqında ədəbiyyatşünaslar Rüstəm Kamal, Məti Osmanoğlu, Xalq şairi Zəlimxan Yaqub yetərincə dəyərli fikirlər söyləyiblər, poeziyasının məziyyətlərini açıblar.

Xaqani Qayıblının şeirlərini oxuyanda qürbətdə yaşasa belə doğulduğu, boşa başa çatdığı Borçalının, Qaraçöpün nəfəsini, ruhunu duyursan. Qürbətdə yaşayan insanın Vətən yanğısı daha səmimi, daha içdən olur. Xaqani Qayıblı qürbətdə yaşasa da, Vətənini içində yaşadan, əzizləyən şairdir.

*Ağlasam, gözümün yaşı sən oldun,*
*Danışsam, sözümün başı sən oldun…*
*Dünya bir üzüksə, qaşı sən oldun*
*A mənim qeyrətli elim, Qaraçöp!*

"Bəxtimlə düşdüyüm əlbəyaxadan, Əlimdə qürbətin yaxası qalıb" yazan şairin acı da olsa, bəxtinə düşən qürbətlə barışa bilmək bacarığını, içini yandıran, ana-atasından, doğmalarından uzaq düşən o ağrını, acını duymuş olursan.

Xaqani Qayıblını görüşlər şairi adlandırardım. Ədəbiyyatşünas Rüstəm Kamal doğru olaraq vurğulayır ki, onun şeirlərinin sujeti sanki yetə bilmədiyi, çata bilmədiyi görüşlərin ilğımından yaranır. Xaqani Qayıblı qəribliyi insan kimi yaşasa da, o qəribliyin ağrı, acısını, taleyini şair kimi şeirlərində göstərir. Vaqif Bayatlının "Qəribik, şairim, qəribik sözüm" şeirinə yazdığı "Qərib şəhərlərdə" şeirindəki o qürbət ağrısını duymamaq olmur:

*Qərib şəhərlərdə*
*Qəmli şərqilər eşitməkdən ağır*
*Heç nə yoxdu bu dünyada!*
*Qərib şəhərlərdə özünü unudar adam –*
*Qəmli şərqilərin ömrünü yaşayır,*
*bir də qəriblərin ömrünü…*

Xaqani Qayıblı qürbət şeirlərini ürəyinin odu, yanğısı ilə yazır. Qürbətin yatmadığı yuxusuz gecələrində, dan üzündə yazır.

Şairin şeirlərini belə qəmli, qübarlı edən bir nəsnə də doğma Qaraçöpündə qoyub gəldiyi anasının, atasının, doğmalarının müqəddəs qəbridi. Ana həsrəti onun qəlbində qübar bağlıyıb. Anası Şərifə xanımın boynuna doladığı qolları, söylədiyi şirin-şəkər laylalarıdı onu daha da şair edən. "Yenə canım söz gəzir" kitabında ana itkisi ilə bağlı yazıdığı "Görüş-ayırılıq" şeirlər silsiləsini həyəcansız, yanğısız oxuya bilmirik.

Xaqani Qayıblı lirik şairdir. Onun oxucu qəlbini saflaşdıran, könül duyğularını çoşduran, könül dünyasını fəth edən həzin bir poeziyası var. Şairin sevincli-kədərli, vüsallı-hicranlı, iki sevən qəlbin hiss və həyəcanını əks etdirən duyğulu sevgili şeirləri diqqəti cəlb edir:

*İtən nəyimiz yox! Ömürmü, günmü?*
*Kaş, sən olmayasan bircə itənim.*
*Səndən o tərəfə dünya görünmür –*
*Dünya gözlərinə sığınıb sənin!*

*Səndən o tərəfə… illər ötüşə,*
*Nə qarlı qış görəm, nə güllü bahar.*
*Səndən o tərəfə elə həmişə,*
*Biləm ki, sən adlı ƏLÇATMAZIM va*r!

Xaqani Qayıblının sevgi şeirlərində fikrin obrazlı, yığcam ifadə tərzi, yüksək bədiilik və səmimiyyət onun poeziyasını daha da oxunaqlı edir. Şairin poeziyasındakı hər bir şeir öz orijinallığı, mövzuların rəngarəngliyi, estetik gözəlliyi və məna dərinliyi ilə oxucu qəlbinə yol tapır.

Xaqani Qayıblı bu gün Vətəndən çox-çox uzaqlarda qürbət həyatı yaşayır. Xaqani Qayıblının qürbətdə keçən ömür yolu min bir əziyyətli, şərəfli və ləyaqətlə keçən ömür yoludur. O, bu ömür yolunda əqidə saflığı, mənəvi bütövlük, cəsarət və şəxsiyyət tamlığıyla ucalıqlar qazanıb. Baltik sahillərində yaşayan bu böyük azərbaycanlının, böyük türkün 60 illik yubileyini gec olsa da, səmimi qəlbdən təbrik edirik.

**Tural Adışirin**

# T E L E F O N

## (MİNİATÜR)

- Ay qara geymiş, yetər, bəsdir telefonla oynadığın. Sənin ayrı işin – gücün yoxdur, məgər? – deyə Xeyransa nənə nəvəsinə acıqlandı.

- E... e... sən də ay nənə, qoymursan ki, Avropa kinolarına baxam... Sizin dövran daha getdi. İndi gərək dünya işlərindən adamların başı çıxsın. Daha sən deyənlərə kimdi baxan. Avropaya gedirik, ay nənə, Avropaya!...

...A, səni görüm atın tərkində gedəsən. Sənə nə düşüb ki, Avropaya getmək istəyirsən. Özümüzün gözəl adətimiz var. Sənə deyirəm o telefonu tulla. Evdə - eşikdə bir işin qulpundan yapış. Qoy bir atan işdən gəlsin, mən bilirəm nələr deyəcəm. O telefonu əlindən aldırmasam itin qızıyam. Axı, nə lazımdır cavan qız uşağına telefon almaq? Onlar da bütün günü onunla oynayır. Pişik balası ilə oynayan dəstiri.

- Ay nənə, sən Allah beyin – başımı aparma...

- Sənin beynini telefon çoxdan aparıb, bala. Təkcə səninkini yox, ey. Əksər cavanlarınkını. Odu e... Gülsənəmin nəvəsi ərindən boşandı. İki uşağı atdı, getdi başqasına. Hələ, Fatmənsənin oğul nəvəsi Alleytər nişanlısı ola – ola başqasına qoşulub qaçdı. Ruxsarənin oğul nəvəsi arvad – uşağı damın altında qoyub, başqasına uyaraq evini tərk etdi. Bütün bunları telefonlar eylədi. Necə deyərlər, dərə - xəlvət, tülkü bəy. Çəkilirsiniz bir küncə, başlayırsınız laqqırtı vurmaqğa. Ay görüm sizin Avropanız dağılsın. Ər arvadına söz deyə bilmir. O saat arvad söyləyir ki, gedib şikayət edərəm. Səni tutarlar. Qoy bir atan gəlsin, gör nələr xəbər verəcəyəm. Gözlərinə mil qoyduracağam.

Nəvəsi gördü ki, nənəsi düz deyir. Atası telefonu onun əlindən alacaq. Gülərək dedi:

- Ay mənim ağıllı nənəm. Arxayın ol. Mən sənə oxşamışam... Və nənəsinə yavuqlaşaraq onu qucaqlayıb öpməyə başladı.



Axşama yaxın atası işdən gələndə nəvəsi nənənin dörd yanına fırım – fırım fırlandı. Atası qızına:

- Dərslərin necə gedir, - deyə soruşdu. Nənəsi danışana qədər qız ucadan gülərək cavab verdi:

- Ata, mən nənəmə oxşamışam. Dərslərimi yaxşı hazırlayıram.

Nənə dinmədi, başa düşdü ki, onun nəvəsi ona oxşasa, daha Avropa nəyinə lazımdır...

**Bahəddin Oruclu,**
**Yazıçı, publisist.**

*X a t i r ə*

# KƏNDİMİZİN MİNAVAR ADLI ÜÇ QADINI

Marneuli rayonunun kiçik kəndlərindən biri olan Yenikənd kəndində eyni vaxtda bir vaxtlar Minavar adlı üç qadın yaşayırdı. Onlardan ikisi kəndimizə gəlin gəlsə də, üçüncü Minavar elə bu kəndin özündə dünyaya göz açmışdı. Onların adları eyni olsa da, kənd caamatı onların hansından söhbət getdiyini asanlıqla ayırd etməyi bacarırdı. Onların içərisində yaşca ən böyüyü, elə boyca da ən uzunu hamının İravənlı Minavar kimi tanıdığı qadın idi. Bu qadın danışıq tərzinə, dünya görüşünə və s. əlamətlərinə görə başqalarından çox seçilirdi. Yeri gələndə sözünü deməyi bacaran bu qadın heç vaxt, heç kimə güzəştə getmirdi. Hətta bir dəfə yeganə oğul övladı olan Hüseyn müəllimlə kiçik bir umu-küsü zamanı ana oğluna qarğış edərək demişdi ki, altı qızla bir süfrəyə əl uzadasan. Bəlkə elə ona görə də ananın qarğışından sonra Hüseyn müəllim nəinki altı qızla, lap elə yeddinci qızla süfrəyə əl uzatmağa məcbur oldu.

Bircə qızım olsaydı qurban kəsərdim deyən valideynlərdən fərqli olaraq Hüseyn müəllim yeddinci qız övladının dünyaya gəlməsinə sevinmədi, bu biçarə qızın adını Fəlakət qoydu.

Bəli, bəli çox doğru eşitdiniz - Fəlakət. Adının niyə Fəlakət qoyulduğunu öz tay-tuşlarına, yaşlılara şərh etməkdən bu biçarə qız lap yorulmuşdu. Deyirlər ki, ananın qarğışı övladına keçmir, bəs onda sizdən soruşuram, deyin görək niyə belə oldu?

İnsafən desəm, bir dəfə Minavar arvad oğlu Hüseynə kömək də çıxmışdı. Belə ki, öz minik maşını ilə qonşu kəndə, gedərkən yolun qırağında yığışıb ayaqüstü söhbət eləyən bir qrup kişiyə salam verərkən lap yaxınlıqda olan telefon dirəyinə fikir verməyib maşınını həmin dirəyə çırpıb əzmişdi. Oğlunu müdafiə etməyə çalışan ana onda arvadlara demişdi ki, anası ölmüş Hüseyn neyləsin, ora stolba yeridirmi ki, aparıb basdırıblar. Oğlumda dayananı basmaq əvəzinə qaçanı basıb qəza törədib.

Ananın dediyi bu bir kəlmə söz sonradan bu günə kimi kənd caamatının dilində böyük bir kəlama çevrilib danışılır. İndinin özündə də kənd cavanlarından kim avtomobil qəzası törədirsə tay – tuşları yarı zarafatla da olsa ona deyirlər ki, sən də anası ölmüş Hüseyn kimi dayanana basmaq əvəzinə qaçanamı basdın ki, qəza törətdin?

Ruhun şad olsun, Minavər nənə, təki sağ olaydın bu günü sən də görəydin. Görəydin ki, indi çıxan mobil cip telefonları ilə insanlar dünyanın dörd bir tərəfinə zəng edib görüntülü danışırlar. Sənin dediyin həmin o stolbaya indi heç ehtiyac da yoxdur. Kim bilir indən belə elm inkişaf etdikcə hansı yeniliklər çıxacaq həyat öz axarı ilə davam edir, inşallah ki, hər şey yaxşı olacaq, yaxşı sonluqla qurtaracaq, təki sağlıq olsun.



**Hacı Çobanov,**
**Marneuli.**

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**8 avqust**

• 1919 — Əfqanıstanın xarici qüvvələrdən müstəqil siyasət aparma cəhdləri Üçüncü İngiltərə - Əfqan müharibəsinə səbəb olub. 3 may 1919-cu ildə Əfqanistan əmiri Amanulla – Xanın (1919 – 1926-cı illər) rəhbərlik etdiyi 50 000-lik əfqan ordusu Britaniyanın idarəçiliyindəki Hindistan ərazisinə daxil olaraq Baq şəhərini işğal edib. Döyüşlər 8 avqust 1919-cu ilə qədər davam edib. Nəticədə Əfqanıstanın müstəqilliyi təsdiqlənib, eləcə də "Dyuran Xətti" kimi bilinən müasir Əfqanistan və Pakistan sərhədi təyin olunub.

• 1945 — 4 – 11 fevral 1945-ci ildə antifaşist koalisiya ölkələrinin keçirdiyi Yalta Konfransında imzalanan müqavilə əsasında SSRİ Yaponiya ilə 13 aprel 1941-ci ildə imzaladığı tərəfsizlik barədə müqaviləni ləğv edərək, Yapon İmperiyasına müharibə elan edib və 1931-ci ildən yapon işğalındakı Mancuriyada (şimal – şərq Çin) hücuma keçib.

**9 avqust**

• 1815 — Vaterloo döyüşündəki məğlubiyyəti nəticəsində devrilən Fransa imperatoru Napoleon Bonapart ingilis gəmisi "Nortumberlend"ə mindirilərək Atlantik okeanındakı Müqəddəs Yelena adasına sürgün edilib. O ömrünün sonunadək Lonqvud qəsəbəsindəki Lonqvud – Hausda yaşayıb və 5 may 1821-ci ildə vəfat edib.

• 1966 — **Qiorqi Leonidze, gürcü şair, vəfat edib.**

• **Sinqapurun Müstəqillik Günüdür. Ölkə 9 avqust 1965-ci ildə iki il əvvəl tərkibinə qatıldığı Malayziyadan ayrılaraq, müstəqil dövlət olub.**

**10 avqust**

• 955 — Alman kralı I Ottonun (936 – 973-cü illər. Qeyd etmək lazımdır ki, 2 fevral 962-ci ildə Roma Papası XII İoann tərəfindən imperatorluğa təyin edilərək, ilk Müqəddəs Roma imperatoru olub) başçılıq etdiyi 10 000 nəfərlik alman qoşunu Bavariyanın Ausburq şəhəri yaxınlığında Mərkəzi Avropaya hücum edən macarları məğlub edib. Həmin döyüş "Alman xalqının doğuşu" ("Geburt der deutschen Nation") adlandırılır.

• 1913 — 29 iyun 1913-cü ildə Birinci Balkan Müharibəsi (8 oktyabr 1912-ci il – 30 may 1913-cü il) nəticəsində əldə edilən Balkan yarımadasındakı Osmanlı ərazilərinin bölünməsi ilə narazı olan bir tərəfdən Bolqarıstan, o biri tərəfdən isə Serbiya, Yunanıstan və Monteneqro arasında başlayan İkinci Balkan Müharibəsinə (Bolqarıstana qarşı müharibəyə Rumıniya və Osmanlı imperiyası da qatılıb) son qoyan Buxarest Sülh Müqaviləsi imzalanıb. Müharibədə məğlub edilən Bolqarıstan əldə etdiyi torpaqların böyük hissəsini itirib.

**11 avqust**

• 1960 — 1900-cü ildən Fransanın müstəmləkəsi olan Mərkəzi Afrika ölkəsi Çad müstəqillik əldə edib.

• 2003 — ABŞ-nin rəhbərliyi ilə 7 oktyabr 2001-ci ildən Əfqanıstanı işğal edən beynəlxalq sülhməramlı qüvvələrin komandanlığı NATO-nun öhdəsinə keçib.

**12 avqust**

• 1121 — Gürcüstanın çarı IV Qurucu Davidin (1089 — 1125-ci illər) rəhbərlik etdiyi gürcülərdən, osetinlərdən və qıpçaqlardan ibarət ordu Didqori döyüşündə Nəcməddin İl-Qazinin rəhbərlik etdiyi Selcuqlu ordusunu məğlub edib.

• 2000 — Rusiyanın "Kursk" nüvə sualtı qayığı Barents dənizində keçirilən təlimlər zamanı batıb.

**13 avqust**

• 1672 — Hollandiyalı astronom Xristian Hüygens (1629 - 1695-ci illər) Mars planetinin cənub qütbündə buz örtüyü kəşf edib.

• Beynəlxalq Solaxaylar Günüdür. Gün ilk dəfə "Lefthanders International2 təşkilatının təşəbbüsü ilə 13 avqust 1976-cı ildə qeyd edilib. Bu günün qeyd edilməsindəki məqsəd müxtəlif avadanlıq istehsalçılarının diqqətini solaxayların problemlərinə cəlb etməkdir.

**14 avqust**

• 1790 — Rusiya ilə keçən müharibələrdə itirilmiş əraziləri geri qaytarmağa çalışan İsveç krallığı və Rusiya İmperiyası arasındakı Rus – İsveç müharibəsinə (1788—1790-cı illər) son qoyan Verel Sülh Müqaviləsi cənubi Finlandiyada imzalanıb. Tərəflər eyni sərhədlərdə qalaraq, status-kvonu saxlayıb.

• 1945 — Yaponiya imperatoru Hirohito (1926 – 1989-cu illər) ölkəsinin antifaşist koalisiyası qarşısında qeyd-şərtsiz təslim olması haqqında fərman verib və bir gün sonra, 15 avqust 1945-ci ildə Yaponiyanın təslim olduğunu radioda elan edib. İkinci Dünya Müharibəsi sona çatıb.

• 1957 — **Alim Qasımov, Azərbaycan xanəndəsi, anadan olub.**

## QİORQİ LEONİDZE



***XX əsrin məşhur gürcü ədiblərindən biri olan Qiorqi Leonidze 8 yanvar 1900-cü ildə bugünkü Saqareco Bələdiyyəsinin Patardzeuli kəndində anadan olub.*** Atası Niko Leonidze ictimai fəal və pedaqoq olub. Anası Sofio Qulisaşvili gürcü ədəbiyyatı və tarixi üzrə mütəxəssis olub. 1907-ci ildə Qiorqi Leonidze Tbilisi Ruhani Məktəbində təhsilə başlayıb. 1911-ci ildə ədibin "Mtsxeta" adlı ilk şeiri "Sinatle" ("İşıq") qəzetində nəşr olunub. 1913-cü ildə Tbilisi Ruhani Seminariyasında təhsilinə davam edib. Seminariyada Vasil Barnov, Niko Sulxanişvili və Korneli Kekelidze kimi məşhur gürcü ədib və pedaqoqlardan dərs alıb. Həmin dövrdə gələcək ədib seminariyanın "Qvirqvini" ("Tac") və "Panduri" əlyazma jurnallarının redaktoru olub. 1916-cı ildə "Sapironi" ədəbiyyat almanaxını nəşr edib.

1918-ci ildə Qiorqi Leonidze seminariyadan məzun olub. 1919-cu ildə şair Tbilisi Dövlət Universitetinə daxil olub. Həmin dövrdə Qiorqi Leonidze simvolizmə yönəlib. Şairin bu üslubda yazdığı əsərlər arasında "Ofort" (1919-cu il), "Göl üzərindəki günəş" (1922-ci il), "Avtoportret" və s. kimi şeirləri qeyd etmək olar. 1921-ci ildə Qiorqi Leonidze Qalaktion Tabidze ilə birlikdə "İnqilab şairləri" adlı şeir toplusunu nəşr edib. 1922 – 1923-cü illərdə gürcü simvolist cəmiyyətinə aid "Baxtrioni" ədəbiyyat qəzetinin redaktoru olub.

Buna baxmayaraq, Leonidze ortodoksal simvolizmdən uzaq olub. Sonralar şairin dərin vətənpərvərlik hissi və gürcü klassiklərinin güclü təsiri onun estetikadan uzaqlaşmasına səbəb olub.

Böyük Vətən Müharibəsi şairin yaradıcılığına böyük təsir göstərib. Həmin dövrdə "Qəm yemə ana" kimi bir sıra şeir yazıb ki, onlardan bəzisi sonralar xalq mahnılarına çevrilib.

1951 – 1953-cü illərdə Qiorqi Leonidze Gürcüstan Yazıçılar İttifaqının rəhbəri olub. 1957 – 1966-cı illərdə o Şota Rustaveli adına Gürcü Ədəbiyyatı Tarixi İnstitutuna rəhbərlik edib.

Qiorqi Leonidze 9 avqust 1966-cı ildə vəfat edib. Tbilisidə ədibin adına küçə var.

## ALİM QASIMOV



***Alim Həsrət oğlu Qasımov – Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, dünyada tanınan vokal ustası, 1957-ci il avqustun 14-də Şamaxı rayonunun Nabur kəndində anadan olub.*** Onun adı təkcə Azərbaycanda deyil, bütün dünyada muğamın səsi və ruhu ilə assosiasiya olunur.

Uşaqlıqdan musiqiyə maraq-lı olan Alim Qasımov Bakıda musiqi məktəbinə daxil olduqdan sonra sənətə peşəkar yanaşmağa başlayıb. O, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alıb. İlk dəfə 1979-cu ildə keçirilən muğam ifaçıları müsabiqəsində qalib olaraq böyük diqqət qazanıb. Bu, onun sənət yolunda dönüş nöqtəsi olub.

Onun ifasında klassik muğamlar — "Rast", "Şur", "Segah", "Çahargah" və s. — tamam fərqli səslənir. O, muğamı yalnız ənənəvi deyil, emosional, improvizə və fəlsəfi dərinliklə təqdim edir.

1990-cı illərdən etibarən Alim Qasımov dünya səhnələrinə çıxıb. O, Fransa, Almaniya, ABŞ, İran, Türkiyə, Rusiya və digər ölkələrdə böyük konsertlər verib. Qərb musiqi tənqidçiləri onu "muğamın Şərq-oxu", "Azərbaycanın vokal fenomeni" adlandırıb.

1999-cu ildə UNESCO tərəfindən "Muğam" dünya mədəni irs siyahısına salındıqdan sonra, Alim Qasımov bu irsin başlıca təmsilçilərindən biri kimi tanındı.

2005-ci ildə "BBC Radio üçüncü Dünya Musiqi Mükafatı"na layiq görülmüşdür.

2009-cu ildə "Şöhrət" ordeni, 2017-ci ildə isə "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Alim Qasımovun sənət yolu ailəsində də davam edir. Qızı Fərqanə Qasımova atasının sənət yolunu davam etdirir və o da muğam ifaçısı kimi tanınır. Onların duetləri xüsusi bir vəhdət və ruhi ahəng yaradır.

Alim Qasımov sadəcə muğam ustası deyil, Azərbaycanın mədəniyyət səfiri, səsin fəlsəfi yükünü daşıyan sənətkardır. Onun ifasında muğam, sözün əsl mənasında, nəfəs alır. Bu gün də o, gənc nəslə örnək olaraq, milli musiqimizin təbliğində və inkişafında önəmli rol oynayır.

## SİNQAPUR




***Sinqapur Cənub – Şərqi Asiyada yerləşən şəhər – dövlətdir.*** Ölkənin şimalındakı Coxor boğazı onu Malakka yarımadasından (Malayziya ərazisi) ayırır. Ölkə qərbdə Malakka boğazı, cənubda Sinqapur boğazı və şərqdə Cənubi Çin dənizi ilə əhatə olunur. Ölkənin ərazisi əsas adadan (Sinqapur adası) və 63 kiçik adadan ibarətdir və 735,6 kv. km təşkil edir. Ölkə əhalisinin sayı 6 028 459 nəfərdir. Ölkənin rəsmi dilləri Avstroneziya dillərinə aid Malay dili, "Huayu" kimi bilinən Şimali Çin ləhcəsi, hind dillərinə aid tamil dili və ingilis dilidir. Pul vahidi Sinqapur Dollarıdır.

**Tarixi:** Sinqapur haqda məlumat III əsrin Çin qaynaqlarında verilib. Çinlilər ərazini "Puloçun" ("Axırda yerləşən ada") adlandırıblar. XII əsrdə ölkə Hindistan və Çin üçün mühüm ticarət mərkəzi olub. XV – XVI əsrlərdə ərazi Cohor sultanlığının (Malayziya) tərkibində olub. Portuqaliyalı səyyah Fernan Maqellanın ümumdünya səfərinin iştirakçısı Antonio Piqafett ərazini "Sinqapola" adlandırıb. 1617-ci ildə Sinqapur portuqaliyalıların hücumuna məruz qalıb. XIX əsrdə Sinqapur Britaniyanın Şərqi Hind şirkətinin idarəçiliyinə düşüb. 1819-cu ildə adaların strateji mühümlüyünü nəzərə alan ingilislər Sinqapur adasında eyniadlı liman qurublar. Böyük Britaniyanın idarəçiliyi altında Sinqapur getdikcə böyüyüb və inkişaf edib.

1922-ci ildə Böyük Britaniya Sinqapuru regiondakı əsas hərbi bazasına çevirib.

İkinci Dünya müharibəsində, 15 fevral 1942-ci ildə Sinqapur Yaponiya tərəfindən işğal edilərək, müharibənin sonuna qədər yapon işğalı altında qalıb. Müharibədən sonra ərazi yenidən Britaniya idarəçiliyinə qayıdıb. 1955-ci ildə müstəmləkə qismən daxili özünüidarə etmə hüququ əldə edib, 1959-cu ildə isə tam özünüidarə etmə hüququna malik əraziyə çevrilib. 16 sentyabr 1963-cü ildə Sinqapur İngiltərədən müstəqillik əldə etmiş Malayziyanın tərkibinə girərək, 144 illik ingilis idarəçiliyinə son qoyub. İki il sonra, 9 avqust 1965-ci ildə, siyasi, iqtisadi və etnik münaqişələrin qarşısını almaq məqsədilə Sinqapur Malayziya tərkibini tərk edərək müstəqil dövlət olub.

1980-cı illərdə Sinqapurun iqtisadi və texnologiya sahəsində inkişaf prosesi başlayıb. Günümüzdə Sinqapur inkişaf etmiş Asiya ölkələrindən ("Asiya Pələnglərindən") biridir.

**Coğrafiyası:** Sinqapur əsas hissəsi Pulau Udzhong adasında yerləşir. Ada rombşəkillidir. Əsas adadan başqa Sinqapur dövləti çoxsaylı kiçik adalara məxsusdur. Ən ucqar adası - Pedra Brancadır. Sinqapura aid kiçik adalardan ən böyük olanları Yurong, Pulau Tekong, Pulau Yubin və Sentosadır. Sinqapur ərazisinin əsas hissəsi dəniz səviyyəsindən 15 metr yuxarıda yerləşir. Sinqapurun ən yüksək nöqtəsi Bukit Timah zirvəsidir. 165 m hündürlükdə olan bu ərazi maqmatik süxurlardan və qranitdən ibarətdir. Adanın şimal-qərbindəki təpələr və dərələr çöküntü qaya süxurlardan təşkil olunub. Şimal-qərb və şərq hissəsi isə düz səthə malik olmaqla qum çöküntülərindən ibarətdir. Sinqapurda heç bir təbii göl yoxdur. Lakin bir çox su anbarları mövcuddur ki, şəhərin içməli su ehtiyatını təmin edir.

**İqtisadiyyatı:** Sinqapurda olduqca inkişaf etmiş elektronika istehsalı, gəmiqayırma və maliyyə xidmətləri sektoru mövcuddur. Sinqapur iqtisadiyyatı ən açıq və korrupsiyasız iqtisadiyyatlardan biridir. Elektronika sənayesi ümumi sənayenin təxminən 48 faizini təşkil edir. Ölkə hökuməti kimya və biotexnologiya sənayesinin inkişafına da üstünlük verir. Sinqapurda kənd təsərrüfatı praktiki olaraq inkişaf etməmişdir, ölkə ərazisinin təxminən 1 faizi becərilir - əsasən kiçik adalarda şəxsi təsərrüfatlar yerləşir. Ərazinin təxminən 3,3 faizini meşələr, o cümlədən tərk edilmiş kauçuk bağları tutur. Kənd təsərrüfatı məhsulları meyvələr, tərəvəzlər, quşçuluq məhsulları və balıqdır.

**Dövlət quruluşu:** Sinqapur parlament respublikasıdır. Prezident dövlət başçısıdır. Prezident ümumxalq səsverməsi yolu ilə 6 il müddətinə seçilir. Sinqapurun hazırkı prezidenti Tharman Şanmuqaratnam 2023-cü ilin sentyabrından vəzifəsini icra edir. Sinqapur parlamenti birpalatalıdır və onun tərkibi seçki dairələri tərəfindən seçilən üzvlərdən, müxalifət partiyalarının nümayəndələrindən və parlamentdə daha çox sayda müstəqil səsi təmin etmək üçün Sinqapur prezidenti tərəfindən şəxsən təyin edilən şəxslərdən formalaşır.

**Elm və təhsil:** Sinqapurda dünyanın ən yaxşılarından biri olan dövlət təhsil sistemi var. Çoxmillətli dövləti gücləndirmək və qlobal dünyaya sürətlə inteqrasiya etmək məqsədi ilə əsas tədris dili ingilis dilidir. Ölkədə dövlətə məxsus olan Sinqapur Milli Universiteti də daxil olmaqla 6 yerli universitet var.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




## “GOOGLE”UN KEÇMİŞ MÜHƏNDİSİ: “BƏŞƏRİYYƏTİN SÜNİ İNTELLEKT ÜZÜNDƏN YOX OLMA EHTİMALI ƏN AZI 95 %-DİR”

***İndiki yolumuza davam etsək, bəşəriyyətin süni intellekt səbəbiylə yox olma ehtimalı ən azı 95 %-dir.***

Bunu “Google” və “Microsoft”un keçmiş mühəndisi, hazırda Maşın Kəşfiyyatı Tədqiqat İnstitutunun prezidenti Neyt Soares bildirib.

*“Əgər hazırkı kursumuzu davam etdirsək, məhv olmaqdan qaçmaq şansımız demək olar ki, qalmayacaq. Biz 100 km/saat sürətlə uçuruma doğru gedirik”,* - deyə o bildirib.

Onu Nobel mükafatı laureatı Ceffri Hinton, riyaziyyatçı Yoşua Bencio və “OpenAI”, “Anthropic” və “Google DeepMind”ın rəhbərləri də dəstəkləyib.

Onların birgə bəyanatında deyilir: *“İnsanların süni intellektə görə yox olma riskinin azaldılması pandemiya və nüvə təhlükələri ilə yanaşı qlobal prioritet olmalıdır”.*

Qeyd edilib ki, narahatlıqlar aldatmağa, planlaşdırmağa və nəzarətdən çıxmağa qadir olan super ağıllı süni intellektin yaranması ehtimalı ilə bağlıdır. Belə ki, hazırda süni intellekt artıq yalan danışa bilir və onun daxili prosesləri insanlar üçün çox vaxt anlaşılmaz olur.

## BALACA MACƏRAPƏRƏSTLƏR



Foto E.Şahvələdindir.

### İTKİ

## MUĞAM SƏNƏTİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ ARİF BABAYEV VƏFAT EDİB

***Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Xalq artisti, muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayev vəfat edib.***



Arif Babayev 1938-ci il fevral 20-sin də Ağdam şəhəri yaxınlığındakı Sarıhacılı kəndində anadan olub. Xanəndə Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaradıb.

Arif Babayev uzun illər ərzində milli musiqi sənətimizin inkişafında, muğam məktəbinin qorunub saxlanılmasında və yeni nəsil ifaçıların yetişdirilməsində böyük xidmətlər göstərib. Onun zəngin yaradıcılığı, pedaqoji fəaliyyəti və sənətə verdiyi töhfələr xalqımızın mədəni irsinin nadir inciləridir.

Muğam sənətimizin qocaman ustadı Arif Babayev “Şöhrət”, “İstiqlal”, “Şərəf” ordenlərinə, Heydər Əliyev Mükafatına layiq görülüb. Xanəndə 87 yaşında dünyasını dəyişib.

Azərbaycanın görkəmli sənətçisi I Fəxri Xiyabanda torpağa tapşırılıb.

***Allah rəhmət eləsin!***

## GÜRCÜSTANIN MƏŞHUR KİNOREJİSSORU DÜNYASINI DƏYİŞİB



***Gürcüstanın görkəmli kinorejissoru, SSRİ Xalq artisti Eldar Şengelaia vəfat edib.***

Bu barədə Nato Vaçnadze fondu öz FB hesabına məlumat paylaşıb.

Eldar Şengelaia 92 yaşında öz vətənində ölüb. Onun rəsmi ölüm səbəbi hələlik açıqlanmır.

Eldar Şengeliaia ömrünü uzun illər kino sənətinə sərf etmiş Gürcüstan və Sovet kinosunun tanınmış rejissoru idi. Şengelaia kino sənətinə ötən əsrin 50-ci illərində qədəm qoyub. Onun ən böyük işləri arasında “Ağ karvan”, “İnanılmaz sərgi”, “Qəribə adamlar” və “Qafqaz triosu” filmlərini göstərmək olar.

“Qafqaz triosu” filmi Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Eldar Şengelaia tərəfindən çəkilib. Film Azərbaycan, Gürcüstan və Ermənistan xalqları arasındakı münasibətdə mədəni bir dialoq qurmağa yönəlib. Filmin çəkilişləri Bakı və Moskvada baş tutub. Rejissor 80 yaşında bu film ilə 20 illik fasilədən sonra yenidən ekran qarşısına çıxmışdı. 2018-ci ildə “Kreslo” bədii filminə görə MDB və Baltika bölgəsinin ən yaxşı filmi nominasiyasında “Nika” mükafatına layiq görülüb.

İncəsənət sahəsinə verdiyi töhfələrinə görə o, Sovet dövründə SSRİ Xalq artisti adını qazanmışdı.

***Allah rəhmət eləsin!***

## XALQ YAZIÇISI ELÇİN ƏFƏNDİYEV VƏFAT EDİB

***Azərbaycanın Xalq yazıçısı Elçin Əfəndiyev 82 yaşında dünyasını dəyişib.***



Qeyd edək ki, görkəmli dramaturq, professor 1943-cü ildə İlyas Əfəndiyevin ailəsində Bakıda anadan olub. 1993-2018-ci illərdə Azərbaycanın Baş nazirinin müavini kimi çalışıb.

1998-ci ildə “Xalq yazıçısı” fəxri adına layiq görülüb. Bundan başqa, “Şərəf”, “Şöhrət”, “İstiqlal” ordenlərinə, eləcə də “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”na layiq görülüb.

Elçin Əfəndiyevin zəngin yaradıcılığında romanlar, povestlər, pyeslər və elmi-tənqidi əsərlər xüsusi yer tutur. Onun “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Baş”, “Bayraqdarlar” kimi əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olub. Dramaturgiya sahəsində də məhsuldar fəaliyyəti ilə fərqlənən yazıçının səhnə əsərləri həm ölkə, həm də xarici teatrların repertuarında geniş yer alıb.

Qeyd edək ki, Elçin Əfəndiyev I Fəxri Xiyabanda dəfn edilib.

***Allah rəhmət eləsin!***

### MARAQLIDIR

## “EVİ OLMASA DA, AVTOMOBİLİ VAR” GÜNDƏ ORTA HESABLA 800 AVTOMOBİL QEYDİYYATA ALINIR

***Gürcüstanda gündə orta hesabla 800-ə yaxın avtomobil qeydiyyata alınır.***

Bunu Xidmət Agentliyinin real vaxt məlumatlarına əsaslanan müşahidələr göstərir.

BPN bir həftə ərzində hər gün statistikanı izləyib və bu müddətdə müəyyən edilib ki, gündə 500–800 avtomobil qeydiyyatdan keçir.

Avtomobil Federasiyasının vitse-prezidenti Mevlud Meladze bildirib ki, ölkədə avtomobillərin sayının davamlı artması ictimai nəqliyyatın əlverişsizliyi ilə yanaşı, əhalinin sosial vəziyyəti ilə də bağlıdır.

Onun sözlərinə görə, bu gün ölkədə insanların əksəriyyəti yalnız bir işlə məşğul deyil, buna görə də avtomobil onlar üçün gün ərzində hərəkət vasitəsi olmaqla yanaşı, həm də gəlir mənbəyidir.

*"Bu yanaşmalarla avtomobillərin sayının artımını dayandıra bilməyəcəyik – bu, mümkün deyil. Bunun qarşısını almaq üçün ən azı, çoxlu metro stansiyaları tikilməlidir, demək olar ki, hər yerdə metro olmalıdır. Bundan başqa, əhalinin təxminən 80%-nin yalnız bir yerdə işləmədiyini nəzərə almaq lazımdır. Təəssüf ki, insanlar bir neçə iş yerinə getməyə məcburdur və istər-istəməz hərəkət vasitəsinə ehtiyac duyurlar. Buna görə də burada ola bilər ki, insanın evi və komfortlu şəraiti olmasın, amma mütləq avtomobili olsun – çünki bu, həm hərəkət imkanı, həm də gəlir mənbəyidir”,* – deyə Mevlud Meladze bildirib.

Qeyd edək ki, Xidmət Agentliyinin interaktiv məlumatlarına əsasən, hazırda ölkədə ümumilikdə 1 milyon 948 min 428 avtomobil qeydiyyata alınıb.

### QOROSKOP

## AVQUST AYININ ULDUZLARI

***Avqust ayı enerjili başlanğıcı və dolunay təsiri ilə bir sıra bürclərə uğur, sevgi və maddi bolluq vəd edir. Ulduzların düzülüşü bəzi bürcləri xüsusilə ön plana çıxarır.***



Astroloqlar bu ayın ən şanslı bürcləri kimi aşağıdakıları göstərir:

***Şir*** - Avqust ayı öz bürcündə doğulan Şirlər üçün adətən güclü enerjilər gətirir. Özlərini ifadə etmək, diqqət çəkmək və yeni başlanğıclar üçün ideal bir dövrdədirlər. Sevgi münasibətlərində də parlayan tərəf olacaqlar.

***Qız*** - Ayın ikinci yarısından etibarən Qız bürcündə doğulanlar üçün fürsətlər qapılarını döyəcək. İş həyatında irəliləyiş, yeni layihələrdə uğur və uzun müddətdir gözlənilən maliyyə xəbərləri bu bürcü sevindirə bilər.

***Əqrəb*** - Duyğusal və intuitiv Əqrəblər üçün avqust ayı daxili güclərinin artdığı və qərar verməkdə daha qətiyyətli olduqları bir dövrdür. Gözlənilməz yerlərdən gələn şanslar və dəstəklərlə yüksəliş yaşayacaqlar.

***Dolça*** - Yaradıcı ideyaların və sosial dairənin genişlənəcəyi bir ay Dolçaları gözləyir. Avqust, onların karyera və şəxsi inkişaf planlarını reallaşdırmaq üçün güclü zamandır.

### BİLDİRİŞ

***Oxucularımızın nəzərinə çatdırırıq ki, texniki səbəblərə görə, qəzetimizin növbəti sayı avqust ayının 22 - də nəşr olunacaq.***


**Qəzetin bank hesabı**

გაზეთის საბანკო ანგარიში

შპს გაზეთ „გურჯისტანი“ ს/კ 203863792

ანგ. № GE03LB0111185703773000

სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22

Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı: Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə. E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444 Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet “Kolori” nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.